# Turizm xidmətləri üçün minimum qiymət həddi

**Azərbaycanda turizm sektorunda xidmətlərin qiymət siyasətinin tənzimlənməsi məsələsi yenidən müzakirə mövzusuna çevrilib. Turizm sənayesində fəaliyyət göstərən mütəxəssislər hesab edirlər ki, bu sahədə qiymətlərin müəyyən çərçivələr daxilində formalaşdırılması həm bazarda sağlam rəqabətin qorunmasına, həm də xidmət göstərən şəxslərin sosial və iqtisadi hüquqlarının müdafiəsinə töhfə verə bilər. Xüsusilə turizm bələdçiləri və xidmət sektorunda çalışan digər şəxslər üçün minimum xidmət haqqının müəyyənləşdirilməsi ilə bağlı təkliflər son dövrlərdə daha çox gündəmə gətirilir.**



## Turizm

■ Bu məsələ ilə bağlı fikirlər Milli Məclisdə keçirilən "Azərbaycanda turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda ictimai dinləmə zamanı səsləndirilib. Dinləmədə çıxış edən turizm sahəsi üzrə mütəxəssis Tural Musayev bildirib ki, **turizm sektorunda çalışan bələdçilərin və xidmət göstərən şəxslərin fəaliyyətinin daha effektiv təşkili üçün hüquqi mexanizmlərin təkmilləşdirilməsinə ehtiyac var.**

Onun sözlərinə görə, hazırda bu sahədə çalışan bir çox şəxs mövsümi iş rejimi ilə fəaliyyət göstərir və bu da onların əmək münasibətlərinin və gəlirlərinin sabit olmamasına səbəb olur. T. Musayev qeyd edib ki, turizm bələdçilərinin böyük hissəsi yalnız turizm mövsümündə aktiv işləyə bilir.

Mövsüm başa çatdıqdan sonra isə onların gəlir mənbələri azalır və ya tamamilə dayanır. Bu vəziyyət həm sosial təminat baxımından problemlər yaradır, həm də bu peşənin davamlılığını müəyyən qədər risk altına qoyur. Onun fikrincə, turizm sektorunda çalışanların hüquqlarının qorunması və onların əməyinin layiqincə qiymətləndirilməsi üçün daha sistemli yanaşma formalaşdırılmalıdır.

Ekspert bildirib ki, bu istiqamətdə ən vacib məsələlərdən biri göstərilən turizm xidmətləri üçün minimum qiymət həddinin müəyyənləşdirilməsidir. Onun sözlərinə görə, ekskursiya xidmətləri, bələdçilik fəaliyyəti və digər turizm xidmətləri üçün müəyyən minimal tariflərin tətbiqi bazarda dempinq hallarının qarşısını almağa kömək edə bilər. Çünki bəzi hallarda xidmətlər real bazar dəyərindən xeyli aşağı qiymətlərlə təklif olunur və bu da həm xidmət keyfiyyətinə, həm də peşəkar kadrların fəaliyyətinə mənfi təsir göstərir.

■ **Turizm sahəsi üzrə ekspert** Rəhman Quliyev **də hesab edir ki, turizm sektorunda qiymət siyasəti bazardakı real iqtisadi vəziyyətə uyğun şəkildə formalaşdırılmalıdır.**

Onun sözlərinə görə, bir çox ölkələrdə turizm xidmətlərinin qiymətləri daxili bazar göstəricilərinə uyğun olaraq tənzimlənir və bu, sektorun dayanıqlı inkişafına müsbət təsir göstərir.

Ekspert qeyd edib ki, bu baxımdan Türkiyə təcrübəsi diqqətəlayiqdir. Onun sözlərinə görə, son illərdə Türkiyədə turizm sektorunda qiymətlərin artması müşahidə olunur və bu artım əsasən ölkədə ümumi bazar qiymətlərinin yüksəlməsi, əmək haqlarının artması və xidmət xərclərinin çoxalması ilə bağlıdır. Bu isə göstərir ki, turizm sektorunda qiymətlər iqtisadi mühitdən və bazar şərtlərindən birbaşa asılıdır.

R. Quliyev bildirib ki, turizm sektorunda əsas məsələ qiymət və xidmət keyfiyyəti arasında balansın qorunmasıdır. Onun fikrincə, əgər ölkədə ümumi bazar qiymətləri münasib səviyyədə olduğu halda otellərin qiymətləri süni şəkildə artırılırsa, bu zaman bazarda balans pozulur və nəticədə turizm xidmətlərinin əlçatanlığı azalır.

Ekspertin sözlərinə görə, otellərdə qiymətlərin artması əsasən iki halda baş verir. Birinci halda bazar qiymətlərinin yüksəlməsi səbəbindən otellərin xərcləri artır. Məsələn, qida təminatı, əmək xərcləri və digər xidmətlər bahalaşdıqda bu dəyişikliklər ümumi qiymətlərə də təsir edir və nəticədə otellər qiymətləri yenidən hesablayaraq müştərilərin hesab-fakturalarına daxil edirlər. İkinci halda isə turist axınının çox olması səbəbindən daha ucuz kateqoriyalı otaqlar tez satılır və yalnız daha yüksək kateqoriyalı otaqlar qalır. Bu isə təbii olaraq qiymətlərin yüksəlməsinə səbəb olur və otellərin daxili qiymət siyasəti çərçivəsində tənzimlənir. Bununla belə, ekspert hesab edir ki, süni qiymət artımı turizm sektorunun inkişafına mənfi təsir göstərə bilər. Onun fikrincə, belə halların artması turistlərin ölkəyə davamlı səfərlərinə mane olmaqla yanaşı, yerli turistlər üçün də ciddi problemlər yarada bilər. Çünki yüksək qiymətlər turizm xidmətlərinin əlçatanlığını azaldır və nəticədə turizm obyektlərinə maraq zəifləyir.

R. Quliyev qeyd edib ki, turist axınının azalması bəzi otellərin maliyyə çətinlikləri ilə üzləşməsinə səbəb ola bilər. Bu isə son nəticədə turizm obyektlərinin fəaliyyətini dayandırmasına və iş yerlərinin itirilməsinə gətirib çıxara bilər. Onun sözlərinə görə, bu risklərin qarşısını almaq üçün turizm sektorunda müəyyən nəzarət mexanizmlərinin tətbiqi vacibdir. Ekspert vurğulayıb ki, otellər yalnız qiymət siyasətini düzgün qurmaqla kifayətlənməməli, eyni zamanda təqdim etdikləri xidmətlərin keyfiyyətinə də ciddi diqqət yetirməlidirlər. Onun fikrincə, otelin malik olduğu ulduz kateqoriyası ilə göstərilən xidmət arasında uyğunluq olmalıdır. Yəni yüksək kateqoriyalı otel statusu daşıyan müəssisələr turistlərə həmin səviyyəyə uyğun xidmət təqdim etməlidir. R. Quliyev bildirib ki, bəzi hallarda 5 ulduz kateqoriyasına malik otellərdə göstərilən xidmətlərin səviyyəsi daha aşağı olur və bu da turistlərin gözləntiləri ilə reallıq arasında fərq yaradır. Bu isə ölkəyə gələn turistlərin ümumi təəssüratına mənfi təsir göstərə bilər.

Ekspertin sözlərinə görə, turizm sektorunda xidmət keyfiyyəti ölkənin beynəlxalq turizm imicinin formalaşmasında mühüm rol oynayır: "Çünki hər bir turist ölkəni tərk edərkən əldə etdiyi təcrübə və təəssüratlar əsasında gələcəkdə həmin ölkəyə yenidən səfər edib-etməmək barədə qərar verir. Əgər turist aldığı xidmətdən razı qalırsa, o, gələcəkdə yenidən həmin ölkəyə qayıtmağa və başqalarına da bu istiqaməti tövsiyə etməyə meylli olur".

> *Bəzi hallarda xidmətlər real bazar dəyərindən xeyli aşağı qiymətlərlə təklif olunur və bu da həm xidmət keyfiyyətinə, həm də peşəkar kadrların fəaliyyətinə mənfi təsir göstərir*

> *Turizm sektorunda qiymət siyasəti bazardakı real iqtisadi vəziyyətə uyğun şəkildə formalaşdırılmalıdır*

**✍ Sevinc**